# Cənub Qaz Dəhlizi: IX Bakı məsləhətləşməsi

**Bu gün Bakı şəhərində Cənub Qaz Dəhlizi Məşvərət Şurasının sayca 9-cu iclası öz işinə başlayır. Bu səbəbdən də Avropanın enerji mərkəzlərinin diqqəti yenidən Bakı şəhərinə yönəlib. Azərbaycanla enerji sahəsində fəal əməkdaşlıq edən Avropa ölkələrinin nazirlərinin, beynəlxalq enerji şirkətlərinin nümayəndələrinin və digər qonaqların iştirakı ilə keçirilən tədbirdə Azərbaycanın "Şahdəniz" yatağından qazın Türkiyəyə və Avropa bazarlarına çatdırılmasını reallaşdıran nəhəng enerji dəhlizinin daha da genişləndirilməsi ilə bağlı məsələlər müzakirə edilir.**




Hazırda Rusiyadan qaz asılılığını minimuma endirmək istəyən Şərqi Avropanın bir neçə ölkəsi interkonnektorların köməyi ilə Cənub Qaz Dəhlizinə qoşulmaqla Azərbaycandan enerji almaq imkanlarını nəzərdən keçirirlər. Bu baxımdan, Məşvərət Şurasının budəfəki iclasından gözləntilər olduqca böyükdür.

Bu mötəbər tədbirdə Avropa Komissiyasının enerji məsələləri üzrə komissarı Kadri Simsonun, Türkiyə, İtaliya, ABŞ, Böyük Britaniya, Gürcüstan, Macarıstan, Rumıniya, Bolqarıstan, Yunanıstan, Albaniya, Moldova, Monteneqro, Serbiya, Ukrayna və Xorvatiyanın yüksək səviyyəli nümayəndələrinin iştirakı nəzərdə tutulur.

***(ardı 7-ci səhifədə)***

# Cənub Qaz Dəhlizi: IX Bakı məsləhətləşməsi

**(əvvəli 1-ci səhifədə)**

Tədbirdə enerji şirkətlərindən SOCAR, BP, BOTAŞ, TANAP, TAP, TPAO, TAQA, Bulgargaz EAD, Bulgartransgaz, İCGB, Fluxys, ROMGAZ SA, SACE, Desfa, TotalEnergies, FGSZ Ltd, SNAM, Uniper, Petronas, ACWA Power, Masdar, Fortescue Future Industries, WindEurope, SolarPower Europe, maliyyə təsisatlarından isə Dünya Bankı, Beynəlxalq Maliyyə Korporasiyası, Avropa Yenidənqurma və İnkişaf Bankı, Avropa İnvestisiya Bankı, Asiya İnfrastruktur və İnvestisiya Bankı, Asiya İnkişaf Bankı və digər qurumlar da təmsil olunacaq.

Rəsmi açılışdan sonra Məşvərət Şurasının iclası öz işini "Cənub Qaz Dəhlizi və Yaşıl enerji üzrə nazirlər sessiyası", "Cənub Qaz Dəhlizi: Əlverişli, sabit və təhlükəsiz təbii qaz təchizatının genişləndirilməsi" və "Yaşıl enerji: Xəzər dənizinin külək enerjisinin Avropa enerji bazarlarına çatdırılması" mövzularında plenar sessiyalarla davam etdirəcək.

Toplantı çərçivəsində, həmçinin "Azərbaycan, Gürcüstan, Macarıstan və Rumıniya Hökumətləri arasında imzalanmış yaşıl enerji sahəsində strateji tərəfdaşlıq haqqında Saziş"in icrası üzrə Rəhbər Komitənin ilk iclasının keçirilməsi də planlaşdırılır.

Yeri gəlmişkən, Məşvərət Şurasının iclasında iştirak etmək üçün Bakıya gəlmiş Avropa İttifaqının enerji məsələləri üzrə komissarı Kadri Simson mətbuata müsahibəsində iclas çərçivəsində planlaşdırılan görüşlər, həmçinin Cənub Qaz Dəhlizinin əhəmiyyəti və genişləndirilməsi yolları barədə məlumat verib. O bildirib ki, iclas keçmişə nəzər salmaq və bu layihənin indiki misli görünməmiş enerji böhranı zamanı Avropa İttifaqına necə kömək etdiyini görmək və genişlənmiş enerji əməkdaşlığı üçün növbəti addımları birlikdə düşünmək üçün əla fürsət olacaq.

Cənub Qaz Dəhlizinin genişləndirilməsinin müzakirələrin əsas mövzusunu təşkil edəcəyini vurğulayan enerji komissarı qeyd edib ki, enerji böhranının ən qızğın vaxtında Cənub Qaz Dəhlizi Avropa İttifaqı ölkələri üçün boru kəmərləri vasitəsilə qaz tədarükünün ən vacib mənbəyi olub. "2022-ci ildə Cənub Qaz Dəhlizi vasitəsilə Avropa İttifaqına tədarük olunan qazın həcmi 2021-ci illə müqayisədə 40 faizdən çox artıb və təqribən 8 milyard kubmetrdən 11,4 milyard kubmetrə çatıb. Son illər Azərbaycan Avropa İttifaqı üçün etibarlı enerji tərəfdaşı kimi özünü təsdiq edib",– deyə o əlavə edib.

Yeri gəlmişkən, 2027-ci ilə qədər qaz kəmərinin ötürmə qabiliyyətinin ildə 20 milyard kubmetrə çatdırılması nəzərdə tutulur. Avropanın enerji xəritəsini zənginləşdirən Cənub Qaz Dəhlizinin genişləndirilməsi iri maliyyə tutumlu layihələrdəndir. Hazırda bu məqsədlə Avropa Yenidənqurma və İnkişaf Bankı ilə geniş müzakirələr aparılır. Kadri Simson müsahibəsində Məşvərət Şurasının növbəti iclasında bankın layihəyə maliyyə dəstəyinin təmin edilməsi imkanlarının nəzərdən keçiriləcəyini də diqqətə çatdırıb.

Son illər "yaşıl enerji"yə keçid beynəlxalq platformasının əsas iştirakçısı kimi tanınan Azərbaycanın bərpaolunan enerji mənbələri üzrə potensialı olduqca yüksək qiymətləndirilir. 2014-cü ildən Beynəlxalq Bərpa Olunan Enerji Agentliyi ilə fəal əməkdaşlıq edən ölkəmiz ötən müddətdə bu sahədə tərəfdaşlıq münasibətlərini xeyli inkişaf etdirib. Elə "Azərbaycanda bərpaolunan enerjiyə hazırlığın qiymətləndirilməsi" layihəsi də bu əməkdaşlığın bariz nümunəsidir.



Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən enerji təhlükəsizliyi siyasətinin əsas hədəflərindən biri də məhz ölkəmizdə bərpaolunan enerji mənbələrinin potensialından səmərəli istifadənin gücləndirilməsindən ibarətdir.

Cənub Qaz Dəhlizi Məşvərət Şurasının 9-cu iclasının əsas müzakirə mövzularından biri də məhz "yaşıl enerji"yə keçid məsələsi olacaq. Avropa İttifaqının enerji məsələləri üzrə komissarının qeyd etdiyi kimi, builki görüşlərdə "yaşıl enerji"nin inkişafına və təmiz enerjiyə keçidə daha çox diqqət yetiriləcək. Yeri gəlmişkən, 2022-ci il iyulun 18-də Azərbaycan ilə Avropa İttifaqı arasında "Avropa Komissiyası tərəfindən təmsil olunan Avropa İttifaqı ilə Azərbaycan Respublikası arasında enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumu"nda bu sahəyə geniş yer verilib. Müsahibəsində bu məsələyə toxunan Kadri Simson qeyd edib ki, Avropa İttifaqı Azərbaycana "yaşıl" keçiddə, o cümlədən, İqtisadi İnvestisiya Planı vasitəsilə dəstəyi davam etdirməyə hazırdır.

Xatırladaq ki, Cənub Qaz Dəhlizi Məşvərət Şurası Prezident İlham Əliyevin təşəbbüsü ilə yaradılıb. Cənub Qaz Dəhlizi layihəsinin həyata keçirilməsi üçün cəlb edilmiş ölkələrin energetika nazirlərindən ibarət Məşvərət Şurasının ilk iclası 2015-ci il fevralın 12-də Bakıda keçirilib. Prezident İlham Əliyevin təşəbbüsü ilə çağırılan ilk iclasda Cənub Qaz Dəhlizi layihəsinin iştirakçısı olan ölkələrin – Azərbaycan, Türkiyə, Gürcüstan, Yunanıstan, Albaniya, İtaliya, Bolqarıstanın energetika nazirlərinin rəhbərlik etdiyi nümayəndə heyətləri, Avropa Komissiyasının enerji məsələləri üzrə vitse-prezidenti, Beynəlxalq Maliyyə Korporasiyasının, Avropa Yenidənqurma və İnkişaf Bankının, Azərbaycan Dövlət Neft Şirkəti, "BP-Azerbaijan" şirkəti, Trans Anadolu Boru Kəməri (TANAP) və Trans-Adriatik Boru Kəməri (TAP) konsorsiumlarının və digər beynəlxalq qurumların rəsmi nümayəndələri iştirak ediblər. Artıq ənənəvi xarakter hal alan Cənub Qaz Dəhlizi Məşvərət Şurasının ötən müddətdə 8 iclası keçirilib.